# Azadlıq carçısı...

## Süleyman Rüstəmin şeirləri ikiyə bölünmüş Vətənin birliyə çağırış harayıdır

**İkiyə bölünmüş Vətən. Bu kəlməni söyləmək hər kəs üçün çətindir. XIX əsrin əvvəllərində xalqımız belə bir acı tale ilə üzləşdi, maraqlı ölkələr onu ikiyə böldü: Cənubi və Şimali Azərbaycan. O vaxtdan tarixin bu haqsızlığı, ayrılığın doğurduğu nisgil, o taylı, bu taylı Azərbaycanın birləşmək arzusu, xalqımızın bu məqsəd uğrunda apardığı mübarizə ədəbiyyatımızın aparıcı mövzularından birinə çevrildi.**



XX əsr Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Süleyman Rüstəmin yaradıcılığında isə cənub mövzusu daha mühüm yer tutur.

Süleyman Rüstəm (Rüstəmzadə) Əliabbas oğlu 1906-cı il martın 12-də Bakıda fəhlə ailəsində dünyaya göz açıb, qayğısız uşaqlıq illəri Novxanı bağlarında, mavi Xəzərin sahilində keçib. Babası Sarı Baxışın sehrli nağılları, xoş söhbətləri, qüssəli mahnıları kiçikyaşlı Süleymanın qəlbində bir aləm yaratmışdı. O, sonralar xatırlayırdı: "Babam həyatda şahidi olduğu macəra və əhvalatları da çox duzlu, canlı və obrazlı danışar, hamını heyran edərdi". Söz, sənət qədri bilən, sinədəftər olan bu qoca öz nəvəsində şeir qoşmaq bacarığını görüb sevinər, qayğı ilə deyərdi: "Gözümün nuru, bu, Allah vergisidir, hər adama qismət olmur".

1920-ci il aprelin 28-də Azərbaycanda sovet hakimiyyəti qurulanda Süleymanın 14 yaşı yenicə tamam olmuşdu. Oğlanlarını mühəndis görmək istəyən ata-anası onu Bakı Sənaye Texnikumuna qoyur. O, burada elektrik mexanikası şöbəsində təhsil alır, texnikumun ictimai həyatında fəallıq göstərir, məktəbin divar qəzetində felyeton və şeirlərlə çıxış edir, hərdənbir "Molla Nəsrəddin" məcmuəsi redaksiyasına kiçik xəbərlər aparırdı.

1923-cü ildə ilk mətbu şeiri - "Unudulmuş gənc" görkəmli ədib Seyid Hüseynin qayğısı ilə "Maarif və mədəniyyət" jurnalında dərc edilir. Elə ilk şeiri onun bu sahədə qol-qanad açmasına stimul olur. 1925-ci ildə Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinə daxil olan Süleyman tələbəlik illərində ədəbi mühitlə daha sıx əlaqə saxlayır.

Əsrin, zamanın ehtiyaclarını, günün tələblərini dərk etmək, xalqı yeni cəmiyyət quruculuğu uğrunda böyük fədakarlığa ruhlandırmaq Süleyman Rüstəmin nikbin poeziyasında başlıca cəhət idi:

***Mənimsədim sevə-sevə öz elimin dilini,***
***Aşıq kimi şən sazımın dillәndirdim telini.***
***Yeni həyat güldü, dərin yaralarım sağaldı,***
***Ürəyimə sevinc doldu, ələmlərim yoxaldı...***

Onun təkcə "Ələmdən nəşəyə" şeiri deyil, eyniadlı kitabı bütövlükdə öz yarandığı dövr üçün həqiqətən poeziyada bir yenilik, novatorluq idi.

İkinci Dünya müharibəsi Azərbaycan ədəbiyyatı tarixində ən ciddi sınaq mərhələsi oldu, çünki müharibənin lap ilk günlərindən ədəbiyyatın bütün janrlarında dövrün qəhrəmanlıq pafosunu əks etdirən, səfərbəredici, mübarizə dolu əsərlər yarandı. 1941-ci ilin avqust ayında Süleyman Rüstəm Sovet Ordusu sıralarında Cənubi Azərbaycanda olduğu zaman Mirzə İbrahimov, Məmməd Rahim, Osman Sarıvəlli, Ənvər Məmmədxanlı, Cəfər Xəndan və digər ədəbiyyat xadimləri ilə birlikdə "Vətən yolunda" qəzeti redaksiyasında əməkdaşlıq edir. Həmin dövrdə Cənubi Azərbaycanda hökm sürən feodal üsuli-idarəsinin xalqın başına gətirdiyi fəlakətlərin şahidi olan şair qanlı Rza şah hakimiyyətinin mənfur mahiyyətini, ictimai həyatın kəskin ziddiyyətlərini məharətlə ifşa edir:

***Dolubdur nəmli zindanlar, yanır onlarda azadlıq,***
***Neçin dinmirsən, ey qardaş, soruş bir gör nədən yandı?***
***Süleyman, qafil olma, yaxşı bax ətrafa, şairsən,***
***Cinayət aşdı həddindən, haray sal ki, Vətən yandı...***

Cənubi Azərbaycan torpağına ana Vətənin bir parçası, ayrılmaz və bölünməz hissəsi kimi baxan şair hər yerdə doğmalıq görürdü: "Təbrizə Şimali Azərbaycanın qabaqcıl ziyalılarından bir qrup gəlmişdi. Mən də onların sırasında idim... Təbrizdə biz azərbaycanlıların görünməsi böyük hadisəyə çevrildi. Qucaqlaşmalar, öpüşmələr... Sevincdən doğan göz yaşları...". Şairin yazdığı kimi, o anlar poetik incilərə çevrilirdi həm də:

***Sənin çiçəyinə, gülünə qurban,***
***Mənə qardaş deyən dilinə qurban.***
***Vətəninə qurban, elinə qurban,***
***Baxdıqca hüsnünə doymayır gözüm,***
***Təbrizim, Təbrizim, gözəl Təbrizim!***

Süleyman Rüstəmin "Təbrizim" şeirlər silsiləsində bir tərəfdən böyük fərəh hissi hakimdir, çünki o, həsrətində olduğu güllərin, çiçəklərin ətrini qoxlayır, başıdumanlı Zəncanın, Savalanın qoynunda gəzir, Təbrizin, Ərdəbilin küçələrində, meydanlarında dolaşır, o biri tərəfdən də doğma bacı və qardaşlarının ağlasığmaz, təsəvvürəgəlməz faciəsini görür, bütün bunlar onun vətəndaş, şair qəlbini ağrıdır.

Şairin "Cənub şeirləri" Vətənə məhəbbət çələngi idi, cənub mövzusu onun yaradıcılığında həmişəlik məskən salmışdı. Cənub həsrətini qəlbində yaşadan, bu müqəddəs duyğunu ürək yanğısı ilə qələmə alan Süleyman Rüstəm sənət aləmində nəcib arzular, humanist fikirlər abidəsi ucaltmışdır. Cənub şeirlərinin hər misrasında ürək döyüntüləri, narahatçılığı, əsarət və ətalət girdabına düçar olan cənubluların dərdi duyulur. Bununla belə, haqsızlıq və zülmlə barışmayan şairin gələcəyə, nurlu sabaha inam dolu çağırışı, gur səsi eşidilir:

***Araz! Hər yaz çəmən birdir***
***o sahildə, bu sahildə,***
***Qərənfil, yasəmən birdir***
***o sahildə, bu sahildə.***
***Süleyman, gəl haray sal, qoy***
***bütün aləm eşitsin ki,***
***Əziz, doğma Vətən birdir***
***o sahildə, bu sahildə.***

Şairin "Dəyişməzsə kökündən", "Yad gül dərə bilməz", "Bir üzdə görün", "Zindan", "Söz axdı sinəmdən", "Təbrizim", "Arazın dərdi" və s. şeirlərinin ideya pafosu, məzmunu Süleyman Rüstəmin Cənubi Azərbaycana möhkəm tellərlə bağlılığını sübut edirdi. Şair Arazın o biri sahilində yaşayan cənublu soydaşlarının zülmə, əsarətə və məhrumiyyətlərə qarşı mübarizəsini, mənəvi dözümünü təsvir etməklə yanaşı, onlarda gələcəyə-sabaha inam oyadırdı. Bu əsərlərdə Azərbaycan xalqının dil və mənəviyyat birliyi, ərazi bütövlüyü, milli tarixi vahidliyi əksini tapmışdı. Onlar günəş ziyası kimi Cənubi azərbaycanlıların ictimai fikrində, mənəvi dünyasında hakim kəsilmiş ətalət və zülmətin yox olmasına, vətənpərvərlik duyğularının, milli şüurun güclənməsinə təsir göstərirdi.

Süleyman Rüstəm nikbin şair idi. O, xalqının ən böyük dərdi olan Vətənin bir gün birliyini görəcəyinə inanır və bu inamını da şeirlərində dönə-dönə tərənnüm edirdi. Şairin cənub şeirləri vüsal və birlik mahnılarıdır. Onun həsrət üzərində köklənmiş hər misrasında ümid, inam, arzusunda olduğu xoşbəxt günlərin tərənnümü var. O şeirlər ikiyə bölünmüş Vətənin birliyə çağıran harayıdır.

1960-cı il mayın 21-də Süleyman Rüstəmə Azərbaycanın Xalq şairi fəxri adı verilmişdi. SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin, Azərbaycan KP MK-nın üzvü olmuşdur. Azərbaycan Ali Sovetinin sədri, Azərbaycan Yazıçılar İttifaqının İdarə Heyətinin daimi üzvü, müxtəlif vaxtlarda "Ədəbiyyat qəzeti"nin baş redaktoru, "Azərbaycan", "Kirpi" jurnallarının, "Sovetski pisatel" nəşriyyatının redaksiya heyətinin üzvü kimi də dövrünün ədəbi prosesinə yaxından kömək etmişdir.

Süleyman Rüstəm 1989-cu il iyunun 10-da dünyasını dəyişib, Fəxri xiyabanda dəfn olunub.

Gənc yaşlarından ömrünün sonunadək usanmadan həm kövrək, həm də qılınc kimi kəsərli şeirlər yazdı, Cənubi Azərbaycanın azadlıq carçısı, ustad şair kimi tanındı, sevildi...

**Zümrüd QURBANQIZI,**
**"Respublika.**